# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 370** **Bakı şəhəri, 3 sentyabr 2018-ci il**

**"Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 may tarixli 81 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 noyabr tarixli 647 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamə"nin 16-cı hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 may tarixli 81 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 389; 2010, № 7, maddə 699; 2015, № 12, maddə 1596; 2017, № 3, maddə 475) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollegiya üzvlərinin sayı 9 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Aparatının rəhbəri

Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutunun direktoru

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Bakı Dövlət Layihə İnstitutunun direktoru

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun direktoru.".

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***